Azərbaycan Turizm və Menecment Universitetində Təlim və tədris prosesinin monitorinqinin təşkili

QAYDALARI

ATMU-KTŞ-Q(TPM)-02

BAKI - 2025

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
01.02.2023	01	Zaur Bağırov Faina Qaçabəyova Sara Bağırlı	
25.09.2025	02	Sara Bağırlı	Akkreditasiya Komissiyasının Yekun Hesabatında verilmiş tövsiyələr

Mündəricat

I.	Ümumi müddəalar	4
II.	Monitorinqin məqsədi və vəzifələri	4
III.	Monitorinqin təşkili	5
IV.	Monitorinq komissiyasının tərkibi və təşkili	5
V.	Monitorinq iştirakçıları, onların hüquq və vəzifələri	6
VI.	Yekun müddəalar	7
Əlavə 1. Monitorinq qrafiki		9
Əlavə 2. Qiymətləndirmə cədvəli		10

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru
_____ İ.İ.Mədətov

I. Ümumi müddəalar

1.1. Təlim və tədris prosesinin monitorinqinin təşkilinin Qaydaları (bundan sonra, Qaydalar) Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, Universitet) Təlim prosesinin monitorinqinin (bundan sonra, Monitorinq) təşkilati-hüquqi əsaslarını, Monitorinq prosesi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir.

1.2. Monitorinq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə "Dövlət Strategiyası"na, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na, "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na, Universitetin Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və digər müvafiq normativ-hüquqi aktlara, eləcə də bu qaydalara uyğun olaraq həyata keçirilir.

II. Monitorinqin məqsədi və vəzifələri

2.1. Monitorinqin əsas məqsədi təlim prosesində professor-müəllim heyəti tərəfindən tətbiq olunan təlim strategiyaları, metod və alətlərin qiymətləndirilməsilə təlim, tədris, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirilməsi, keyfiyyətin yüksəldilməsi, qanunvericiliyin tələblərinə əməl olunması və inkişafa dəstək göstərilməsindən ibarətdir.

2.2. Monitorinq aşağıdakı vəzifələrin həyata keçirilməsinə xidmət edir:

2.2.1. Tədris prosesinin keyfiyyətli, səmərəli təşkili və qiymətləndirmənin obyektivliyinin müəyyənləşdirilməsi ilə əlaqədar təlim prosesini qiymətləndirmək;

2.2.2. Professor-müəllim heyətinin səriştələrinin artırılması məqsədilə təlim ehtiyaclarını müəyyənləşdirmək;

2.2.3. Tədris, təlim, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirməsini nəzərdə tutan təklifləri rəhbərliyə təqdim etmək.

III. Monitorinqin təşkili

3.1. Monitorinq tədris ili ərzində bütün akademik heyəti əhatə edəcək formada həyata keçirilir. İlk növbədə əvvəlki tədris ilində ən yüksək və ən aşağı müvəffəqiyyət və keyfiyyət nəticələri olan, tələbələrin rəy sorğusunun nəticələrinə əsasən məmnunluq səviyyəsi ən yüksək və ən aşağı olan müəllimlərin tədris etdiyi fənlər monitorinq edilir. Monitorinq zamanı öncəlik sözügedən meyarlar üzrə olsa da, təsadüfi seçmə üsulu ilə də digər akademik heyət üzvlərinin tədris prosesinin monitorinqi həyata keçirilir.

3.2. Zərurət yarandığı halda təkrar monitorinq təşkil olunur.

3.3. Monitorinq bilavasitə tədris prosesi çərçivəsində təşkil olunur.

3.4. Monitorinq müvafiq fakültələrin təqdim etdiyi dərs cədvəlinə və kafedraların təqdim etdiyi akademik heyətin siyahısına uyğun olaraq planlaşdırılır və təşkil edilir.

3.5. Ümumiyyətlə monitorinq prosesi haqqında məlumat akademik və inzibati heyətə monitorinq prosesindən ən azı bir həftə öncə verilir.

3.6. Monitorinqin təşkili məqsədilə Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinin müdiri tərəfindən Əlavə 1-də göstərilmiş qaydada Monitorinq qrafiki hazırlanır. Monitorinqin detallı qrafiki (hansı fənnin tədrisinin hansı tarixdə müşahidə ediləcəyinə dair məlumat) barədə akademik heyət üzvləri əvvəlcədən məlumatlandırılmır. Detallı qrafik barədə sadəcə həmin gün məlumatlandırılmaq şərti ilə Monitorinq Komissiyası üzvlərinin prosesdə iştirakı Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinin müdiri tərəfindən koordinasiya edilir.

IV. Monitorinq komissiyasının tərkibi və təşkili

4.1. Monitorinq keçirilməsi məqsədilə Monitorinq komissiyası yaradılır və qiymətləndirmə onun tərəfindən həyata keçirilir.

4.2. Monitorinq komissiyasının tərkibi ATMU-nun akademik və inzibati heyət üzvləri arasından könüllülük prinsipi ilə olmaqla, Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinin müdirinin təklifi əsasında ATMU rektoru tərəfindən formalaşdırılır.

4.3. Hər bir dərsin monitorinqində komissiyanın ən az üç üzvü iştirak edir.

4.4. Komissiya üzvü olaraq iştirak edəcək akademik heyət üzvlərinə qoyulan tələblər aşağıdakı kimidir:

a) ali təhsil sahəsində 3 illik pedaqoji stajının olması;

b) ATMU-da ştat və ya yarım ştat akademik heyət üzvü olması;

c) monitorinq ediləcək fənnin tədris dilində pedaqoji fəaliyyətlə məşğul olması;

d) zərurət yarandığı halda digər ali təhsil müəssisələrindən də ekspertlərin cəlb olunması mümkündür.

4.5. Komissiya üzvləri Strateji inkişaf və keyfiyyət təminatı şöbəsi tərəfindən qaydalarla bağlı məlumatlandırıldıqdan (görüş və ya təlim vasitəsilə) sonra fəaliyyətinə başlayır.

4.6. Monitorinq dərs zamanı əyani şəkildə və ya video müşahidə əsasında təşkil edilir.

4.7. Komissiya işini Əlavə 2-dəki meyarlar əsasında aparır və monitorinqin yekunundan sonrakı 1 ay müddətində Strateji inkişaf və keyfiyyət təminatı şöbəsi tərəfindən hesabat ATMU rektoruna və Elmi Şuranın müzakirəsinə təqdim edilir.

4.8. Komissiyanın səlahiyyət müddəti tədris ili üzrə olmaqla onun yaradılması haqqında müvafiq əmrlə müəyyən edilir. Komissiyanın işinin təşkili Strateji inkişaf və keyfiyyət təminatı şöbəsi tərəfindən həyata keçirilir.

V. Monitorinq iştirakçıları, onların hüquq və vəzifələri

5.1. Monitorinq prosesinin iştirakçıları bunlardır: akademik heyət üzvləri, Monitorinq komissiyası və tələbələr.

5.2. Komissiya üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

5.2.1. Monitorinq aparmaq məsədilə video qeydiyyatı əldə etmək və monitorinq aparılacaq auditoriyaya daxil olmaqla fəaliyyətin tələb etdiyi digər imkanlardan istifadə etmək;

5.2.2. Monitorinq prosesinin səmərəli təşkili üçün rəy və təklifləri bildirmək (dərs prosesindən sonra);

5.2.3. Monitorinq aparılacaq fənnin sillabusu, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq.

5.3. Komissiya üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

5.3.1. Monitorinq təşkilinə dair təlimdə iştirak etmək;

5.3.2. Monitorinq olunacaq fənn üzrə sillabus, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq;

5.3.3. Monitorinq aparılcaq auditoriyaya dərs başlayarkən daxil olub dərs bitdikdən sonra tərk etmək;

5.3.4. Monitorinq müddətində dərsin gedişatına heç bir şəkildə mane olmamaq, sadəcə müşahidə aparmaq, auditoriya iştirakçıları ilə fikir mübadiləsi aparmamaq;

5.3.5. Meyarlar üzrə təqdim edilmiş blankda (Əlavə 2) təlim prosesi ilə əlaqədar qiymətləndirməni obyektiv və dolğun şəkildə aparmaq;

5.3.6. Monitorinqin yekununda qiymətləndirmə blankını imzalı şəkildə Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinin müdirinə təqdim etmək (qiymətləndirmə elektron formada aparıldığı halda auditoriyanı tərk edənədək qiymətləndirməni yekunlaşdırmaq);

5.3.7. Monitorinq komissiyası tərəfindən hazırlanacaq hesabatın tərtibi prosesində iştirak etmək;

5.3.8. Qiymətləndirmə prosesinə aid məlumatları konfidensial saxlamaq;

5.3.9. Tədris prosesinin gedişatına və Monitorinq prosesinin subyektlərinə hörmətlə yanaşmaq.

5.4. Professor-müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

5.4.1. Dərs prosesini sərbəst şəkildə təşkil etmək;

5.4.2. Monitorinqin keçirilməsi qaydaları haqqında məlumat almaq;

5.4.3. Monitorinq nəticələrinə dair hesabat ilə tanış olmaq;

5.4.4. Monitorinq komissiyasının üzvü olmaq üçün namizədliyini irəli sürmək.

5.5. Fakültələr, Kafedralar və Professor-müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

5.5.1. Video müşahidəsinin aparılmasına şərait yaratmaq;

5.5.2. Komissiya üzvlərinin auditoriyaya daxil olub müşahidə aparmasına şərait yaratmaq;

5.5.3. Monitorinq prosesi zamanı komissiya üzvləri ilə müzakirələr aparmamaq;

5.5.4. Dərs cədvəlində hər hansı dəyişiklik baş verdiyi halda bu barədə Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinə operativ şəkildə məlumat vermək.

5.6. Tələbələr monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

5.6.1. Monitorinqin məqsədi haqqında məlumat almaq.

5.6.2. Adət edilmiş qaydada tədris prosesinə davam etmək;

5.6.3. Xüsusi qeydlərini Komissiya üzvlərinə, Strateji inkişaf və keyfiyyət təminatı şöbəsinin müdirinə yazılı və şifahi qaydada təqdim etmək.

5.7. Auditoriya iştirakçıları monitorinq prosesində komissiya üzvlərinin işinə mane olmamalıdır.

5.8. Monitorinq tədbirləri elə təşkil olunmalıdır ki, təlim prosesinin təbii nizamına maneə olmasın.

VI. Yekun müddəalar

6.1. Monitorinq nəticələri Elmi Şurada dinlənildikdən sonra aidiyyəti strukturlara göndərilir.

6.2. Monitorinqə dair hesabat əsasında prosesdə iştirak etmiş professor-müəllim heyət üzvlərinə, eləcə də, digər akademik heyət üzvlərinə müvafiq təkmilləşdirmə istiqamətli məsləhət verilir, zərurət yarandığı halda təkrar monitorinq təşkil olunur.

Hazırki Prosedur Qaydalar 12 noyabr 2025-ci il tarixli Elmi Şura iclasında 02 №-li protokolla təsdiq olunmuşdur.

Əlavə 1. Monitorinq qrafiki

№	Akademik heyət üzvü (ASA)	Kafedra	Tarix	Auditoriyajk	Fənnin adı
1.					
2.					
3.					
4.					
5.					
6.					
7.					
8.					
9.					
10.					

Əlavə 2. Qiymətləndirmə cədvəli

Akademik heyət üzvünün ASA: _____

Akademik heyət üzvünün vəzifəsi, elmi dərəcəsi və elmi adı: _____

Qrup: _____

Fənnin adı: _____

Dərsin mövzusu: _____

Dərsin növü: ☐ Mühazirə ☐Seminar ☐Praktiki məşğələ

№	Meyarlar üzrə qiymətləndirmə				
	Meyar	Tamamilə uyğundur	Uyğundur	Qismən uyğundur	Uyğun deyil
1.	**Planlaşdırma və məqsəd**	Müəllim dərsi müəyyən plan əsasında aparır, dərsin əvvəlində mövzunun məqsədini və gözlənilən *bütün* təlim nəticələrini elan edir, dərs müddətində mövzunun və fənnin təlim məqsəd və nəticələrini əlaqələndirir, dərsi təlim nəticələrinə *tamamilə uyğun* təşkil edir.	Müəllim dərsi plan əsasında aparır, məqsəd və əsas təlim nəticələrini elan edir, lakin dərs müddətində bütün nəticələrə tam istinad etmir və ya əlaqələndirmə tam sistemli deyil, *əsasən uyğun* formada təşkil edir.	Müəllim dərsi plan əsasında aparmağa çalışır, dərsin əvvəlində mövzunun məqsədini və gözlənilən təlim nəticələrini qismən elan edir, dərs müddətində mövzunun və fənnin təlim məqsəd və nəticələrini qismən əlaqələndirir, dərsi təlim nəticələrinə *qismən uyğun* formada təşkil edir.	Müəllim dərsi plansız formada, dərsin mövzusunun məqsəd və gözlənilən təlim nəticələrini elan etmədən aparır və ya dərs müddətində mövzunun və fənnin təlim məqsəd və nəticələrini əlaqələndirmir və ya dərsi təlim nəticələrinə *uyğun formada təşkil etmir.*
		☐	☐	☐	☐
		1-ci meyar üzrə komissiya üzvünün rəyi:			

2.	**Tələbə fəallığı və ünsiyyət**	Müəllim dərs müddətində *bütün tələbələri diqqətlə dinləyir*, dəyər verdiyini göstərir, onların suallarına aydın cavab verir və *bütün* auditoriyanı müzakirələrdə iştirak,etməyə, fəal dinləyici olmağa, öz fikirlərini bölüşməyə təşviq edir, dərs zamanı tələbələri tənqidi düşünməyə *həvəsləndirir*.	Müəllim dərs müddətində *tələbələri dinləyir*, onların suallarına əsasən cavab verir, lakin əksər hallarda aktiv tələbələrlə ünsiyyət qurur.	Müəllim dərs müddətində *tələbələri qismən dinləyir*, suallarının bəzilərini cavablandırır və auditoriyanı müzakirələrə iştiraka təşviq etməkdə *əsasən çətinlik çəkir*.	Müəllim dərs müddətində tələbələri dinləməkdə, suallarını cavablandırmaqda *çətinlik çəkir*, auditoriyanı müzakirələrə iştiraka təşviq etməkdə *çətinlik çəkir və ya təşviq edə bilmir*.
		☐	☐	☐	☐
		2-ci meyar üzrə komissiya üzvünün rəyi:			
3.	**Tədris metodları və pedaqoji bacarıqlar**	Müəllim dərs zamanı innovativ təlim metodlarından (keys, müzakirə, qrup işi, layihə və s.) məqsədyönlü istifadə edir, natiqlik bacarığı, tədqiqat fəaliyyəti və akademik etikaya əsaslanmaqla auditoriyanın diqqətini mövzuya *tamamilə cəlb edə bilir*.	Müəllim dərs zamanı innovativ təlim metodlarından (keys, müzakirə, qrup işi, layihə və s.) *əsasən* istifadə edir, natiqlik bacarığı, tədqiqat fəaliyyəti və akademik etikaya əsaslanmaqla auditoriyanın diqqətini mövzuya *əsasən cəlb edə bilir.*	Müəllim dərs zamanı innovativ təlim metodlarından (keys, müzakirə, qrup işi, layihə və s.) *qismən* istifadə edir, natiqlik bacarığı, tədqiqat fəaliyyəti və akademik etikaya əsaslanmadan auditoriyanın diqqətini mövzuya cəlb etməkdə çətinlik çəkir.	Müəllim dərs zamanı innovativ təlim metodlarından (keys, müzakirə, qrup işi, layihə və s.) istifadə etmir, natiqlik bacarığı, tədqiqat fəaliyyəti və akademik etikaya əsaslanmır, auditoriyanın diqqətini mövzuya cəlb edə bilmir.
		☐	☐	☐	☐

		3-cü meyar üzrə komissiya üzvünün rəyi:			
4.	**Təqdimat və texnoloji vasitələrdən istifadə**	Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan və audio-vizual dəstəkçi vasitələrdən *səmərəli istifadə edir.*	Müəllim avadanlıq, o cümlədən vizual təqdimatdan və audio-vizual vasitələrdən *qismən istifadə edir.*	Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan *qeyri-effektiv istifadə edir.*	Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan və audio-vizual dəstəkçi vasitələrdən istifadə etməkdə *çətinlik çəkir və ya istifadə etmir.*
		☐	☐	☐	☐
		4-cü meyar üzrə komissiya üzvünün rəyi:			
5.	**Məzmun və səmərəlilik**	Müəllim dərs materiallarını *tamamilə* aydın və anlaşılan şəkildə izah edir, auditoriyadan nə gözlənildiyini açıq şəkildə bildirir, cari mövzunu əvvəlki mövzularla, elmi ədəbiyyat və digər etibarlı mənbələr ilə əlaqələndirir.	Müəllim dərs materiallarını ümumən izah edir, cari mövzunu *əksər hallarda* əvvəlki mövzularla, əsas elmi ədəbiyyat və digər etibarlı mənbələr ilə *ümumən əlaqələndirir.*	Müəllim dərs materiallarını qismən izah edir cari mövzunu əvvəlki mövzularla, elmi ədəbiyyat və digər etibarlı mənbələr ilə *qismən əlaqələndirir.*	Müəllim dərs materiallarını izah etməkdə, auditoriyadan nə gözlənildiyini ifadə etməkdə, cari mövzunu əvvəlki mövzularla əlaqələndirməkdə, elmi ədəbiyyat və digər etibarlı mənbələr ilə əlaqələndirməkdə *çətinlik çəkir.*

		☐	☐	☐	☐
		5-ci meyar üzrə komissiya üzvünün rəyi:			
6.	**Qiymətləndirmə və nəticəyönümlülük**	Müəllim qiymətləndirmə meyarlarını tələbələrə dərsdən əvvəl bildirir və işçi tədris proqramında qeyd edir, tədris materiallarının mənimsənilməsinə uyğun qiymətləndirmə aparır və bu qiymətləndirmə fəndən gözlənilən ümumi nəticəyə tamamilə xidmət edir.	Müəllim qiymətləndirilmə meyarlarını tələbələrə əsasən bildirir, işçi tədris proqramlarında qeyd edir, tədris materiallarının mənimsənilməsinə uyğun qiymətləndirməni əsasən aparır və bu qiymətləndirmə fəndən gözlənilən ümumi nəticəyə *əsasən* xidmət edir.	Müəllim qiymətləndirilmə meyarlarını tələbələrə qismən bildirir, işçi tədris proqramlarında qismən qeyd edir, tədris materiallarının mənimsənilməsinə uyğun qiymətləndirməni qismən aparır və bu qiymətləndirmə fəndən gözlənilən ümumi nəticəyə *qismən* xidmət edir.	Müəllim qiymətləndirilmə meyarlarını tələbələrə əvvəlcədən bildirmir və işçi tədris proqramlarında qeyd etmir və ya tədris materiallarının mənimsənilməsi səviyyəsinə uyğun qiymətləndirmə aparmır və bu qiymətləndirmə fəndən gözlənilən ümumi nəticəyə xidmət etmir.
		☐	☐	☐	☐
		6-cı meyar üzrə komissiya üzvünün rəyi:			

Yekun rəy (təklif və tövsiyələr):

Qeyd: Mühazirə dərsləri ilk 5 meyar, seminar dərsləri 1, 2, 3 və 6-cı meyar, praktiki məşğələ isə 1-6 meyar üzrə qiymətləndirilir.

Komissiya üzvünün ASA: Komissiya üzvünün imzası: Tarix: